**Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik**
AZ1108, Azərbaycan, Bakı şəhəri, İbrahimpaşa Dadaşov küçəsi, 260
Telefon : (+99412) 497-38-51 Faks : (+99412) 497-44-27
E-mail: **novbetchi@anama.gov.az** Veb-sayt: **www.anama.gov.az**
https://www.facebook.com/anama.anama.180 https://twitter.com/ANAMA_gov_az

# 10 May 2018-ci il tarixində Agentlik tərəfindən Bərdə rayonu ərazisində keçirilmiş təcili təxirəsalınmaz əməliyyat barədə

# OPERATİV MƏLUMAT

**2018-ci il 10 may tarixində saat 18:11-də Daxili İşlər Nazirliyinin "102" Xidməti-Zəng mərkəzi sistemindən və saat 18:29-da Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə mərkəzindən Agentliyə Bərdə rayonu, Mirzəxan kəndi ərazisində 1 ədəd mərminin tapılması barədə məlumatlar daxil olmuşdur.**

**Məlumatlara əsasən Agentliyin xüsusi mobil çevik əməliyyat qrupu və Bərdə rayon Polis şöbəsinin əməkdaşları dərhal həmin əraziyə göndərilmişdir.**

**Agentliyin mütəxəssisləri Daxili İşlər Nazirliyinin Bərdə rayon Polis şöbəsinin əməkdaşları ilə birlikdə yuxarıda adı qeyd olunmuş ərazidə Bəhramtəpə-Ağcabədi magistral yolunun kənarına baxış keçirmişlər. Aparılan təcili təxirəsalınmaz operativ əməliyyat axtarış tədbirləri nəticəsində Agentliyin mütəxəssisləri tərəfindən 1 ədəd 100 mm-lik top mərmisi (OF-412) aşkar olunmuş, zərərsizləşdirilməsi üçün götürülərək Agentliyin mərkəzi məhvetmə ərazisinə daşınmışdır.**

**Aşkar olunmuş mərminin ətrafında 500 kv.m əraziyə yerüstü baxış keçirilmiş, bundan əlavə təhlükəli əşya və qurğu aşkar edilməmişdir.**

---

**Ümumilikdə Agentlik tərəfindən 01 yanvar – 10 may 2018-ci il tarixlərində Ağdam, Ağcabədi, Ağstafa, Astara, Abşeron, Beyləqan, Bərdə, Füzuli, Tərtər, Qazax, Naftalan, Goranboy, Göygöl, Yevlax, Xızı, Şəmkir, İsmayıllı, Lənkəran rayonları, Bakı, Gəncə və Sumqayıt şəhərləri ərazisində 13 ev və həyətyanı sahəyə, 9 əkin sahəsinə, 1 fərdi yaşayış evinin qarşısına, 1 ferma ərazisinə, 12 otlaq sahəsinə, su kanalına, çay sahilinə, Ağstafa su anbarının ətrafına, kənd qəbirstanlığının yaxınlığına, məişət tullantıları ərazisinə, yol kənarına, dəmiryolu xəttinin yaxınlığına, elektrik deposuna, RPŞ-nin inzibati ərazisinə, hərbi hissənin yaxınlığına, Avtovağzal ərazisinə, Yuxarı Qarabağ kanalına,Qarqar çayına, beton zavod və bazar ərazisinə baxış keçirilmiş, 3 475 ədəd partlamamış hərbi sursat, 3 ədəd tank əleyhinə mina və 73 kq partlayıcı maddə (ammonit № 6 JV-200) aşkar olunaraq zərərsizləşdirilmiş, 77 365 kv.m ərazi yoxlanılmışdır.**










